## İNTİZARINI

Qayıt gülüm, gözləyirəm yolunu,
Qoyma gözlərimdə arzularımı.
Yetər oynadığın hicran oyunu,
Çəkdirmə, çəkirəm intizarını.
Həsrətdən donubdur ürəyim yenə,
Gedişin gətirib kədər-qəm mənə,
Mən ki, isinmişdim gözəlim sənə,
Çəkdirmə, çəkirəm intizarını.
Sən gedəli bulud təki dolmuşam,
Xəzan vurmuş çiçək təki solmuşam,
Yaman kövrəkləşib uşaq olmuşam,
Çəkdirmə, çəkirəm intizarını.
Sənsiz həyatımda olmadı xoş gün,
Sənsiz yaşayıram həyata küskün,
Yalvarıram sənə, qayıt, geri dön,
Çəkdirmə, çəkirəm intizarını.
Altay sənsiz yenə xəyala dalıb,
Sən çıxıb getmisən, xəyalın qalıb,
Sənsizlik qəlbimi azara salıb,
Çəkdirmə, çəkirəm intizarını.

## NƏLƏR GÖRDÜM

Günlər qovur bir-birini,
Var acısı, var şirini,
Ölü ağlayır dirini,
Dünya, səndə nələr gördüm?!
Getdi ömrüm, getdi bada,
Bu dünyada yandım oda,
Həyatımı verdim bada,
Dünya, səndə nələr gördüm?!
Yoxdur sənə daha sözüm,
Olmadı səndə xoş günüm,
Ağladırsan çıxır ünüm,
Dünya, səndə nələr gördüm?!
İçirtmisən dərd dolu cam,
Dərdlə necə yaşayacam,
Sirr var qəlbdə daşıyacam,
Dünya, səndə nələr gördüm?!
Sənin vəfan budur yəni,
Altay necə sevsin səni,
Bir daha qınama məni,
Dünya, səndə nələr gördüm?!

**Altay ƏLİZADƏ.**